0151100020

Reçu CLT / CIH / ITH

# AZƏRBAYCAN QEYRİ-MADDİ MƏDƏNİ İRS NÜMUNƏLƏRİNİN DÖVLƏT REYESTRİ

Le 01 OCT. 2019

*Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 218 saylı 28.04.2010 tarixli Əmri ilə təsdiq edilmişdir, 25.08.2011, 28.03.2012, 18.10.2012, 15.05.2013, 03.02.2014, 27.01.2015, 17.02.2016, 12.05.2016, 24.10.2018, 09.04.2019 tarixli əlavələrlə*

N° 0496

| Bölmənin adı | Seksiya, sub-seksiya | | № | Elementin adı | Elementlərin növləri |
|---|---|---|---|---|---|
| BAYRAM, MƏRASİM, AYİN | AYİN VƏ MƏRASİMLƏR | | (1). | Çay dəstgahı | sosial fəaliyyət, ayinlər və bayram tədbirləri |
| | | | (2). | Hamam mədəniyyəti | |
| | | | (3). | Sünnət | |
| | | | (4). | Yas | |
| | | | (5). | Türkeçarə | təbiət və kainata aid biliklər və fəaliyyət |
| | XALQ BAYRAMLARI | | (6). | Qurban | şifahi ənənələr və ifadələr, təbiət və kainata aid biliklər və fəaliyyət |
| | | | (7). | Novruz | |
| | | | (8). | Orucluq | |
| | | | (9). | Nar bayramı və mədəniyyəti | |
| MƏDƏNİ MƏKANLAR | XÜSUSİ MƏDƏNİ MƏKANLARIN ƏNƏNƏVİ BİLİKLƏRİ | | (10). | Nicin mədəni məkanı | ənənəvi sənətkarlıq, təbiət və kainata aid biliklər və fəaliyyət |
| | | | (11). | Qırmızı Qəsəbənin mədəni məkanı | |
| FOLKLOR | MUSİQİ | | (12). | Aşıq sənəti | ifa incəsənəti |
| | | | (13). | Muğam sənəti | |
| | | | (14). | Meyxana | |
| | RƏQSLƏR | | (15). | Yallı (Köçəri) | |
| | | | (16). | Uzundərə | |
| | ŞİFAHİ ƏNƏNƏLƏR | | (17). | Dədə Qorqud dastanı | şifahi ənənələr və ifadələr |
| | | | (18). | Koroğlu dastanı | |
| | OYUN-TAMAŞA > OYUNLAR | Atüstü oyunlar | (19). | Altunqabaq | sosial fəaliyyət, ayinlər və bayram tədbirləri |
| | | | (20). | Atüstü güləş | |
| | | | (21). | Baharbənd | |
| | | | (22). | Papaq oyunu | |
| | | | (23). | Çovqan | |
| | | Dərviş oyunları | (24). | Aylanış | |
| | | | (25). | Dövran | |
| | | Uşaq oyunları | (26). | Bənövşə | |
| | | | (27). | Cızığtopu | |
| | | Zorxana oyunları | (28). | Güləşmə | |
| | | | (29). | Pəhləvanlıq | |
| | OYUN-TAMAŞA > | Qaravəlli tamaşaları | (30). | Kosa-gəlin | |
| | | | (31). | Şirvan Qazısı | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | TAMAŞALAR | Meydan tamaşaları | (32). | Ayıoynatma | sosial fəaliyyət, ayinlər və bayram tədbirləri |
| | | | (33). | Xoruz döyüşdürmə | |
| | | Oyuq (Kukla) tamaşaları | (34). | Çömçəgəlin | |
| | | | (35). | Dəzgah Şahsəlimi | |
| | | | (36). | Ərusək | |
| | | Şəbih tamaşaları | (37). | Əza | |
| | | | (38). | Qətl | |
| | | | (39). | Məzhək-Şəbih | |
| SƏNƏTKARLIQ | XALQ TƏSVİRİ SƏNƏTİ | | (40). | Miniatür sənəti | ənənəvi sənətkarlıq |
| | | | (41). | Heykəltəraşlıq | |
| | | | (42). | Qrafika | |
| | | | (43). | Xəttatlıq | |
| | | | (44). | Rəngkarlıq | |
| | TİKMƏ | | (45). | Doldurma | |
| | | | (46). | Güləbətin | |
| | | | (47). | Muncuqlu | |
| | | | (48). | Pilək | |
| | | | (49). | Təkəlduz | |
| | ƏNƏNƏVİ-DEKORATİV SƏNƏT | | (50). | Azərbaycan xalçaçılığı | |
| | | | (51). | İpəkçilik | |
| | | | (52). | Şəbəkəçilik | |
| | | | (53). | Kəlağayı sənəti | |
| | XALQ TƏTBİQİ SƏNƏTİ | | (54). | Ağacişləmə | |
| | | | (55). | Duluşçuluq | |
| | | | (56). | Bədii metal | |
| | | | (57). | Bəzədilmə üsulları | |
| | | | (58). | Dəmirçilik | |
| | | | (59). | Zərgərlik | |
| | | | (60). | Lahıc qəsəbəsinin misgərlik sənəti | |
| | | | (61). | Şüşə sənəti | |
| MƏTBƏX ƏNƏNƏLƏRİ | ƏNƏNƏVİ ÇÖRƏK NÜMUNƏLƏRİN HAZIRLANMASI | | (62). | Nazik çörəyin hazırlanma mədəniyyəti (lavaş, yuxa, yayma, sac çörəyi, girdə, daş çörəyi, fətir) | sosial fəaliyyət, ayinlər və bayram tədbirləri |
| | | | (63). | Təndir və kövrək çörəklərinin hazırlanma bilikləri | |
| | MƏDƏNİ VƏ SOSİAL FUNKSİYALARI DAŞIYAN ƏNƏNƏVİ MƏTBƏX NÜMUNƏLƏRİ | | (64). | Dolmanın hazırlanma və paylaşma mədəniyyəti | |
| | | | (65). | Bozbaşın hazırlanma bilikləri | |

| | | | | |
|---|---|---|---|---|
| **MİLLİ MUSİQİ ALƏTLƏRİNİN HAZIRLANMA VƏ İFAÇILIQ SƏNƏTİ** | **İDIOFONLU ÇALĞı ALƏTLƏRİNİN HAZıRLANMA VƏ İFAÇıLıQ SƏNƏTİ** | (66). | Ağız qopuzu | ənənəvi sənətkarlıq, ifa incəsənəti |
| | | (67). | Kaman | |
| | | (68). | Çan | |
| | | (69). | Hövsər | |
| | **NƏFƏS ÇALĞı ALƏTLƏRİ** | (70). | Kərənay | |
| | | (71). | Mizmar | |
| | | (72). | Musiqar | |
| | | (73). | Nay ifaçılıq sənəti | |
| | | (74). | Balaban | |
| | **SIMLI ÇALĞı ALƏTLƏRİ** | (75). | Tar sənətkarlığı və ifaçılığı | |
| | | (76). | Saz sənətkarlığı və ifaçılığı | |
| | | (77). | Kamança sənətkarlığı və ifaçılıq sənəti | |
| | **ZƏRB ÇALĞı ALƏTLƏRİ** | (78). | Dəf hazırlanma və ifaçılıq sənəti | |
| | | (79). | Dümbək | |
| | | (80). | Qaval | |

| BAYRAM, MƏRASİM, AYİN > XALQ BAYRAMLARI | |
|---|---|
| FT010100009 | Nar bayramı və mədəniyyəti |

# Azərbaycan Respublikasının Qeyri-Maddi Mədəni Irs Nümunələrinin Dövlət Reyestrindən « Nar bayramı və mədəniyyəti »nə dair qısa çıxarış

**Reyestr Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 218 saylı 28.04.2010 tarixli əmri ilə təsdiq edilmişdir (Faylın təsdiq edildiyi tarixi: 23.03.2016; əlavələr: 10.07.2019)**

Faylın kodu: 0118918

Nazirliyin əmri (nömrəsi): № 00385

## 1. Elementin adı

| | |
|---|---|
| | **Miniatür sənəti** |
| Reyestrdə bölməsi: | Bayram, mərasim, ayin |
| Alt bölmə: | Xalq bayramları |

## 2. Elementin növü

- ☒ qeyri-maddi mədəni irsin vasitəsi kimi şifahi ənənələr və ifadələr, o cümlədən dil
- ☒ ifa incəsənəti
- ☒ sosial fəaliyyət, ayinlər və bayram tədbirləri
- ☒ təbiət və kainata aid biliklər və fəaliyyət
- ☒ ənənəvi sənətkarlıq
- ☐ mədəni məkanlar
- ☐ digər(ləri)

## 3. Elementin coğrafi mövqeyi

Nar Azərbaycanın bütün ərazisində əkilib becərilsə də, sırf narçılıqla məşğul olan bölgələrdə- Goyçay, Ağsu, Kürdəmir, Zərdab, Ağdaş, Abşeron, Gəncə, Şəki, Ağdam, Bərdə, Tərtər, Goranboy, Masallı, Sabirabad kimi aran rayonlarında bu təsərrüfat sahəsi daha çox inkişaf etmişdir.

Ənənəvi Nar Bayrami hər il Göyçayda təşkil olunur. Göyçay Azərbaycan Respublikasının tərkibində inzibati rayondur. Rayon respublikamızın mərkəzində Şirvan düzünün şimal hissəsində, Böyük Qafqaz dağlarının cənub ətəklərində yerləşir. Rayon ərazisi 40°20' ilə 40°50' şimal enlikəri və 47°40' ilə 48°10' şərq uzunluqları arasında yerləşir. Göyçay rayonun ərazisi 755,3 $km^2$-dir. Əhalisinin sayı 118271 nəfərdir. (01.01.2017), o cümlədən şəhər əhalisi 32%, kənd əhalisi 68%-dir.

## 4. Aidiyyəti icmaların və qrupların adı.

Azərbaycanın müxtəlif bölgələrində kənd ərazisində yaşayan və nar yetişdirməklə məşğul olan insanlar, ənənəvi Nar Bayramının müxtəlif mərhələlərində, ənənəvi yarmarkada və müsabiqələrdə iştirak edən Göyçay rayonunun sakinləri və ailələri, və ümumiyyətlə nar mədəniyyətin öz mədəniyyətinin tərkib hissəsini kimi qəbul edən azərbaycanlılar element icması sayılır.

Narçılıqla məşğul olan bir çox fermerlər ittifaqların, birliklərin və qeyri-hökumət təşkilatlarının üzvləridir. Göyçay Bələdiyyəsi də icmanın bir hissəsini təşkil edir və elementin qorunmasında və təbliğində mühüm rol oynayır. Xaricdə yaşayan çoxlu azərbaycanlılar Nar Bayramını və nar mədəniyyətini öz mədəni identikliyin tərkib hissəsini kimi qəbul edirlər.

Expertlər: Fuad Məmmədov, Ruslan Mehdiyev, Cəmilə Abbasova

***İcmaların iştirakı barədə məlumat:***

| | |
|---|---|
| Görüşlər: | Göyçay şəhərində 6 görüş (26.10.2015, 29.10.2015, 02.11.2015, 04.11.2015, 09.11.2015, 10.11.2015: narçılıqla məşğul olan fermerlər, Göyçay Bələdiyyəsi, Nar bayramının təşkilatçıları və iştirakçıları, gənclər, QHT-lər); |
| | Alxasava, Çərəkə, Yalman, Müskürlü, Ərəbşahverdi and İnçə kəndlərində 6 görüş (02-06.11.2015: narçılıqla məşğul olan fermerlər, Nar bayramının təşkilatçıları və iştirakçıları); |
| | Gəncə şəhərində 2 görüş (06.12.2015, 08.12.2015: narçılıqla məşğul olan fermerlər, fərdi şəxslər, gənclər, QHT-lər). |
| | Abşeron rayonunda 2 görüş (16.11.2015, 17.11.2015: narçılıqla məşğul olan fermerlər və fərdi insanlar, QHT-lər, yerli bələdiyyələr) |
| | Kürdəmir rayonunda 3 görüş (22-24.11.2015: narçılıqla məşğul olan fermerlər və fərdi insanlar, yerli bələdiyyələr) |
| | Goranboy rayonunda 2 görüş (11-14.01.2016: narçılıqla məşğul olan fərdi insanlar, yerli bələdiyyələr) |
| | Masallı rayonunda 4 görüş (07-02.12.2015: narçılıqla məşğul olan fərdi insanlar, yerli bələdiyyələr) |
| | Sabirabad şəhərində 2 görüş (18.11.2015, 20.11.2015: narçılıqla məşğul olan fermerlər və fərdi insanlar, Sabirabad şəhər bələdiyyəsi) |

## 5. Element haqqında məlumat

Narın azərbaycanlıların təsərrüfat və məişət həyatında əhəmiyyətli yer tutması arxeoloji materiallarda öz əksini tapmışdır. Azərbaycan nağıl və dastanlarında, əfsanə və rəvayətlərində, qədim el inamlarında, xalq mahnılarında, aşıq şerlərində nar mövzusunun geniş yer tutması da bununla bağlıdır. Nar obrazı Azərbaycan folklor və etnoqrafiya mədəniyyətinin ən populyar rəmzi-məcazi fiqurlarından biri olduğu üçün şifahi və yazılı qaynaqlarda, habelə tikmə, oyma, xalçaçılıq, rəngkarlıq və başqa sənət sahələrində onun çoxçeşidli inikaslarını görmək mümkündür. Xeyir-bərəkət, uğur, şəfa, arzu-istək, gözəllik, məhəbbət, saflıq məzmunları ifadə eləyən nar obrazının sözü gedən atributları onunla əlaqədar olan mövsüm mərasimində – Nar bayramında da öz geniş əksini tapmaqdadır.

Nar bayramı qədim dövrlərdən bəri Azərbaycanda keçirilən mövsüm mərasimidir. Payızın sonlarında keçirilən Nar bayramı nar bitkisinin məhsulu toplandıqdan sonra bolluq-bərəkət əhvalından doğan şükranlıq duyğusunu ifadə edən qədim bir mövsüm mərasimidir. Narın ruzi-bərəkət, xeyir-uğur simvolu kimi əzizlənməsi, nəğmələr, oyunlar, rəqs və musiqi vasitəsi ilə tərənnüm olunması, mədh edilməsi bayram mərasimində əsas yer tutur. Narçı baba və Nar qızın təbriki və xeyir-duası ilə başlanan mərasimdə narın becərilməsi, yığımı və ondan müxtəlif məhsulların alınması ilə bağlı etnoqrafik səhnələr canlandırılır. Müəyyən məqamları rəqs-karnaval səciyyəsi daşıyan bayram mərasimində narla bağlı yarışmalar keçirilir, uzaq əsrlərdən gələn xalq təcrübəsini əks etdirən nar mətbəxi (nar şirəsinin çəkilməsi, narşərab, narrub, nardança, narsalat, nar mürəbbəsi, narplov, narturşusu hazırlanması və s.) canlı proses kimi nümayiş olunur, narın təkcə meyvəsinin deyil, köklərinin, ağacının qabığının, yarpaqlarının xalq təbabəti, rəngkarlıq və boyaqçılıqdakı faydası əyani şəkildə göstərilir. Narların çeşid və növ zənginliyi, böyüklüyünü və miniatürlüyünü təqdim edən müsabiqə - bəhsləşmə də bayrama şuxluq-gözəllik gətirir. Səhərdən-axşama qədər davam edən bayram mərasimindəki minlərlə iştirakçıya nar paylanır, narplov və nar şirəsi ərməğan olunur. Nar sərgisinə öz seçkin məhsulları ilə gələn milli geyimli narçı bağbanlar, eləcə də onların ailə, yaxud da icma üzvləri nümayiş etdirdikləri narları xüsusi folklor deyimləri, mədhiyyə-gözəlləmələrlə vəsf edərək çevrədəkilərin diqqətini çəkməyə çalışırlar. Bir çox hallarda çevrədəkilər də onlara qoşulub oxuyur, oynayırlar. Bayram mərasimi başa çatdıqdan sonra

narçı bağbanlar və icma üzvləri xəstələrə, kimsəsizlərə, imkansız ailələrə yollanaraq onlara bayram payı verirlər. Həmin gün evlərdə, ailələrdə də bayram əhvalı davam edir.

Milli musiqi və rəqslərin müşayiəti ilə keçən Nar bayramındakı ritual, aksiya və obrazlar insanın təbiətlə münasibətlərini əks etdirən arxaik mifoloji görüşləri, eləcə də narın unikal bir nemət kimi təsərrüfat və məişət həyatındakı tarixi yeri və dəyəri öz inikasını tapmışdır.

## 6. Elementin ötürülməsinə dair məlumatlar

Nar bayramı bir mərasim ənənəsi olaraq şifahi yolla nəsildən-nəsilə ötürülərək fasiləsiz şəkildə dövriyyədə saxlanılır. Burada görüb-götürmək və tarixi ənənəyə bağlı olmaq həlledici faktor kimi qəbul edilir. Bu bayrama məxsus olan oyun və yarışmalar, musiqili-poetik mətnlər, mahnılar, rəqslər, nar obrazının mifoloji və tarixi-etnoqrafik məna tutumlarını ifadə edən rəmzi-məcazi canlandırmalar, nar mətbəxinin özünəməxsusluğunu və səciyyəvi xüsusiyyətlərini əks etdirən yemək, bəzək və içki çeşidləri ilə bağlı bilgi və bacarıqlar əyani nümayişetdirmə yolu ilə yaşlı-təcrübəli nəsillərdən yeni, gənc, öyrənməkdə olan nəsillərə ötürülür. Tarixən sırf şifahi ənənə yolu ilə ötürülən bu bayrama məxsus bilik və bacarıqlar bu gün həm də yazılı və elektron vasitələrlə təbliğ olunmaqdadır. Bununla belə, əsas ağır¬lıq mərkəzi yenə də şifahi ənənənin üzərində qalmaqdadır.

Nar bayramı və mədəniyyəti ilə bağlı bilgi və bacarıqları daha çox yaşlı nəslə mənsub olan təcrübəli bağbanlar, ağsaqqal-ağbirçəklər daşıdıqları üçün onların söhbətləri, xatirələri xüsusi əhəmiyyət kəsb edir. Həmin söhbətlər, xatirələr yazıya alınaraq kitab və toplular şəklində yeni nəsillərə çatdırılır.

Nar bayramı mərasimi daxilindəki folklor və etnoqrafiya realilərinin öyrənilməsi və elementin təbliği işində uyğun elm sahələrində çalışan əməkdaşlar, eləcə də bu tarixi-mənəvi dəyərlərə həssaslıq göstərən ziyalılar, jurnalistlər də mühüm rol oynayırlar. Məktəblərdə, mədəniyyət ocaqlarında, ictimai qurum və kütləvi informasiya vasitələrində aparılan məqsədyönlü təbliğat və bilgiləndirmə də faydalı nəticələr verir.

## 7. Elementin cari praktikasının səviyyəsi

☒ əla ☐ yaxşı ☐ orta ☐ zəif ☐ çox zəif

## 8. Elementin təcili qorunmaya ehtiyaci (əgər varsa)

☐ vardır ☒ yoxdur

## 9. Mədəniyyət Nazirliyinin aidiyyəti şöbə(lər)nin adı

- Mədəniyyət Nazirliyinin şəhər və rayon şöbələri, Ağdaş Regional Mədəniyyət İdarəsi

# STATE REGISTER OF INTANGIBLE CULTURAL HERITAGE ELEMENTS OF AZERBAIJAN

*Approved by the order No. 218 of the Ministry of Culture of the Republic of Azerbaijan on 28.04.2010, with updates dated 25.08.2011, 28.03.2012, 18.10.2012, 15.05.2013, 03.02.2014, 27.01.2015, 17.02.2016, 12.05.2016, 24.10.2018, 09.04.2019*

| Name of grand sector | Section, sub-section | | № | Title of the element | Type of the element |
|---|---|---|---|---|---|
| FESTIVITIES, EVENTS, CEREMONIES | RITUALS AND CEREMONIES | | (1). | Tea destgah | social practices, rituals and festivities |
| | | | (2). | Hamam tradition | |
| | | | (3). | Sunnet, ritual circumcision | |
| | | | (4). | Yas mourning ritual | |
| | | | (5). | Traditional quackery | knowledge and practices concerning nature and the universe |
| | FOLK FESTIVITIES | | (6). | Qurban | oral traditions and expressions, knowledge and practices concerning nature and the universe |
| | | | (7). | Novruz | |
| | | | (8). | Orujluq | |
| | | | (9). | Nar bayrami festivity and culture | |
| CULTURAL SPACES | TRADITIONAL KNOWLEDGE OF CULTURAL SPACES | | (10). | Cultural space of Nij | knowledge and practices concerning nature and the universe, traditional craftsmanship |
| | | | (11). | Cultural space of Qirmizi Qasaba | |
| FOLKLORE | MUSIC | | (12). | Ashuq Art | performing arts |
| | | | (13). | Mugham | |
| | | | (14). | Meykhana | |
| | DANCES | | (15). | Yalli (Kochari) | |
| | | | (16). | Uzundere | |
| | ORAL TRADITIONS | | (17). | Dede Qorqud Epos | oral traditions and expressions |
| | | | (18). | Koroğlu Epos | |
| | GAMES, PERFORMANCES > GAMES | Horse riding games | (19). | Altunqabaq | social practices, rituals and |
| | | | (20). | Horse wrestling | |
| | | | (21). | Baharbend | |
| | | | (22). | Papakh game | |
| | | | (23). | Chovqan | |
| | | Darvishs' traditional game | (24). | Aylanish | |
| | | | (25). | Dövran | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | **Children's games** | (26). | Benovshe | festivities |
| | | | (27). | Jizigtopu | |
| | | **Zorkhana games** | (28). | Güleshme | |
| | | | (29). | Pehlevanlıq | |
| | **GAMES, PERFORMANCES > PERFORMANCES** | **Joke performances** | (30). | Kosa-gelin | social practices, rituals and festivities |
| | | | (31). | Shirvan Qazisi | |
| | | **Square performances** | (32). | Ayioynatma | |
| | | | (33). | Khoruz döyüshdürme | |
| | | **Puppet performances** | (34). | Chömchegelin | |
| | | | (35). | Dezgah Shahselimi | |
| | | | (36). | Erusek | |
| | | **Shebih performances** | (37). | Eza | |
| | | | (38). | Qetl | |
| | | | (39). | Mezhek-Shebih | |
| **TRADITIONAL CRAFTS** | **FOLK FINE ARTS** | | (40). | Art of miniature | traditional craftsmanship |
| | | | (41). | Traditional sculpture | |
| | | | (42). | Graphics | |
| | | | (43). | Azerbaijani Traditional calligraphy | |
| | | | (44). | Azerbaijani folk painting | |
| | **EMBROIDERY** | | (45). | Doldurma embroidery | |
| | | | (46). | Gülebetin embroidery | |
| | | | (47). | Munjuqlu embroidery | |
| | | | (48). | Pilek embroidery | |
| | | | (49). | Tekelduz embroidery | |
| | **TRADITIONAL DECORATIVE ART** | | (50). | Azerbaijani carpet weaving | |
| | | | (51). | Sericulture | |
| | | | (52). | Shebeke making | |
| | | | (53). | Kelaghayi art | |
| | **APPLIED ARTS** | | (54). | Traditional woodwork | |
| | | | (55). | Traditional pottery | |
| | | | (56). | Artistic metalwork | |
| | | | (57). | Traditional Azeri ornamentation | |
| | | | (58). | Blacksmith's art | |
| | | | (59). | Jeweller's art | |
| | | | (60). | Traditional copper craftsmanship of Lahij | |

| | | | | |
|---|---|---|---|---|
| | | (61). | Glass art | |
| CULINARY PRACTICES | PREPARATION SKILLS OF TRADITONAL BREAD | (62). | Culture of flatbread making (lavash, yukha, yayma, saj choreyi, girde, dash choreyi, fetir) | social practices, rituals and festivities |
| | | (63). | Skills of preparation of tandir and kovrek bread | |
| | KNOWLEDGE OF TRADITIONAL FOODWAYS | (64). | Dolma making and sharing | |
| | | (65). | Traditional skills of preparing bozbash | |
| CRAFTSMANSHIP AND PERFORMING ART OF NATIONAL MUSICAL INSTRUMENTS | IDIOPHONE MUSICAL INSTRUMENTS | (66). | Aghiz qopuzu | traditional craftsmanship, performing arts |
| | | (67). | Kaman | |
| | | (68). | Chan | |
| | | (69). | Hövser | |
| | WIND MUSICAL INSTRUMENTS | (70). | Kerenay | |
| | | (71). | Mizmar | |
| | | (72). | Musiqar | |
| | | (73). | Performing arts related to Nay | |
| | | (74). | Balaban | |
| | STRINGED MUSICAL INSTRUMENTS | (75). | Craftsmanship and performance with the Tar | |
| | | (76). | Craftsmanship and performance with the Saz | |
| | | (77). | Kamancha crafting and performing art | |
| | PERCUSSION MUSICAL INSTRUMENTS | (78). | Crafting and playing with Def | |
| | | (79). | Dümbek | |
| | | (80). | Qaval | |

FESTIVITIES, EVENTS, CEREMONIES > FOLK FESTIVITIES

FT010100009 NAR BAYRAMI FESTIVITY AND CULTURE

# A short extract from the Register of Intangible Cultural Heritage of Azerbaijan, regarding "Nar Bayrami festivity and culture"

The Register was approved by the Ministry of Culture
of the Republic of Azerbaijan by Order No. 218, dated 28.04.2010
(File approved on 23.03.2016; updated on 10.07.2019)

Reference code of the file: 0118918 Ministry Order: № 00385

1. **Name of the element** — **Nar Bayrami festivity and culture**

   Section — Festivities, events, ceremonies

   Sub-section — Folk festivities

2. **Category of the element**

   X oral traditions and expressions, including language as a vehicle of the intangible cultural heritage
   X performing arts
   X social practices, rituals and festive events
   X knowledge and practices concerning nature and the universe
   X traditional craftsmanship
   __ cultural spaces
   __ other

3. **Geographic scope of the element**

   Although communities cultivate and use pomegranate all over Azerbaijan, the regions of the dense presence of pomegranate farmers include Goychay, Agsu, Kurdamir, Zardab, Agdash, Absheron, Ganja, Sheki, Aghdam, Barda, Tartar, Goranboy, Masalli, and Sabirabad.

   Nar Bayrami is held annually in Goychay. Goychay is an administrative district within the Republic of Azerbaijan. The region is located in the center of the county in the north of the Shirvan plain, on the southern slopes of the Greater Caucasus Mountains. The region is located between 40°20' and 40°50' north latitude and 47°40' and 48°10' east longitude. The territory of Goychay region is 755.3 km². The population is 118271 people (01.01.2017), including 32% of urban population and 68% of the rural population.

4. **Identification of community**

   The community of the element includes people living in rural areas and growing pomegranates in different regions of Azerbaijan, individuals and families of the Goychay region who take part in various stages of preparation and running of Nar Bayrami, traditional fairs and competitions related to it, as well as the locals in Azerbaijan, who consider pomegranate culture an element of cultural identity.

   Many farmers engaged in pomegranate farming are members of unions, associations and non-governmental organizations. Goychay Municipality is also part of the community and plays an

important role in maintaining and promoting the element. Many Azerbaijanis living abroad consider Nar Bayrami and pomegranate culture as an integral part of their cultural identity.

Experts: Fuad Mammadov, Ruslan Mehdiyev, Jamila Abbasova.

*Data on community involvement:*

Meetings held:

6 meetings in Goychay (26.10.2015, 29.10.2015, 02.11.2015, 04.11.2015, 09.11.2015, 10.11.2015: farmers engaged in pomegranate-growing, Goychay municipality, organizers and participants of Nar Bayrami, youth, NGOs);
6 meetings in the villages of Alkhasava, Chereke, Yalman, Muskurlu, Arabshahverdi and Incha (02-06.11.2015: pomegranate farmers, organizers and participants of the Nar Bayrami);
2 meetings in Ganja (06.12.2015, 08.12.2015: farmers engaged in pomegranate farming, individuals, youth, NGOs).
2 meetings in the Absheron region (16.11.2015, 17.11.2015: farmers and individuals, NGOs, local municipalities)
3 meetings in the Kurdamir region (22-24.11.2015: farmers and individuals, local municipalities)
2 meetings in the Goranboy region (11-14.01.2016: individuals engaged in pomegranate growing, local municipalities)
4 meetings in the Masalli region (07-02.12.2015: individuals engaged in pomegranate growing, local municipalities)
2 meetings in Sabirabad (18.11.2015, 20.11.2015: farmers and individuals engaged in pomegranate growing, Sabirabad municipality)

## 5. Information about of the element

The importance that communities attached to the pomegranate culture in their economic and domestic life is reflected in the archeological materials. The culture of pomegranate is widespread in Azerbaijani fairy tales and legends, myths and legends, ancient folk beliefs, folk songs, ashug poems. Pomegranate is one of the most popular and figurative symbols of the folklore and ethnographic culture of Azerbaijan, and references to it and its meaning can be found in oral and written sources, as well as in the fields of embroidery, carving, painting and other traditions. The importance of the pomegranate culture lies in its function to express blessing, success, healing, desire, beauty, love, and purity. All these symbolic roles of the pomegranate are reflected in the seasonal festivity - Nar Bayrami.

Nar Bayrami is a seasonal festivity held in Azerbaijan since ancient times. Held in late autumn, Nar Bayrami is a festivity that expresses a sense of gratitude from the abundance of pomegranates after harvest. During the festivity, the communities honor the pomegranate as a symbol of prosperity and blessing, by accompanying the festivity with singing, praising, dancing and music and overall celebration. Starting with the blessing of Narchi baba and Narchi giz ('pomegranate grandfather' and 'pomegranate girl'), it revives the scenes related to pomegranate cultivation, harvesting and its use. Some of the highlights of the festivity include dance-carnival celebrations, traditional meals based on the ancient practice of use of pomegranate (squeezing of juice, narsharab, narrub, nardancha, narsalat, nar mürebbesi, narplov, narturshusu, etc.). Communities demonstrate the practices linked to use of not only the fruit itself, but also the use of the roots, tree bark and leaves in the preparation of colors and natural dyes. Nar Bayrami includes a traditional contest of assortments, sizes and varieties of pomegranates, which gives the festivity a sense of particular joy and pride of the communities. Thousands of people attend the festivity, which lasts from morning till evening. The farmers growing pomegranate, with their families and community members, presenting their fruits and related products during the traditional fair, try to attract the attention of visitors around them by saying proverbs and using folklore expressions. In many cases, those standing around join in, sing and dance with the farmers. At the end of the festivity, pomegranate farmers and members of the community visit local disadvantaged, lonely, ill and poor people to give them a 'share' of pomegranates and pomegranate products from the festivity. Festive mood continues at homes in families on those days.

Accompanied by local music and dances, the rituals, actions and representations of the pomegranate by communities, have symbolic meaning reflecting human relations with nature, as well as the historical place and value of pomegranate as a unique blessing for communities.

## 6. Information on transmission of the element

Pomegranate culture and Nar Bayrami are traditionally transmitted from generation to generation orally. Linking history with culture and experiencing the cultural practices play an important role in transmission. The games and contests, musical and poetic texts, songs, dances, symbolic practices expressing the mythological, historical and cultural meanings of the use of pomegranate and its representations, symbols, peculiarities of food practices, ornaments and beverages and related skills are transmitted from older-experienced generations to newer, younger, generations through visual demonstration. Knowledge and skills related to the culture and festivity, historically transmitted through purely oral tradition, are still being promoted through written press and media. However, the center of transmission still remains in the oral tradition of the communities.

The memories and talks of experienced farmers and elders in relation to pomegranate culture and Nar Bayrami are extremely important. These conversations and memories are written and transmitted to new generations in the form of books and collections.

People working in the field of science and ethnography, intellectuals and journalists, who are knowledgeable and keen to promote historical and moral values of the pomegranate culture, play an important role in the safeguarding and promotion of the element. Promotion, outreach and awareness-raising efforts in schools, cultural institutions, public institutions and the media also sustain the transmission.

**7. Level of viability of the element**

X_ Excellent
__Good
__Average
__ Weak
__ Very weak

**8. Need to urgent safeguarding (if any)**

__Yes
X No

**9. Names of concerned departments of the Ministry of Culture**

- City and regional departments of the Ministry of Culture
- Agdash Regional Department for Culture